# Akademik Ziya Bünyadovun kitabı Serbiyada çap edilib




**Azərbaycan Respublikasının Qərbi Balkan ölkələrində - Serbiyada, Monteneqroda, Bosniya və Herseqovinada Fövqəladə və Səlahiyyətli səfiri Eldar Həsənovun təşəbbüsü və dəstəyi ilə Belqradda görkəmli tarixçi alim, akademik Ziya Bünyadovun ”Azərbaycan VII-IX əsrlərdə” kitabı nəfis tərtibatla işıq üzü görüb. Belqradın ”Total Trade İnternational” nəşriyyatında çar olunmuş əsəri tanınmış serb mütəxəssisi Draqolyub Masliçin redaktorluğu ilə Qradimir Poliç və Nina Poliç tərcümə edib.**

Qeyd edək ki, akademik Ziya Bünyadovun 1500 tirajla nəşr olunmuş əsərinin Qərbi Balkanda nəşri səfirliyin bu sahədə ilk işi deyil. Təkcə son beş il ərzində Belqradda, Novi Sadda, Sarayevoda və Podqoritsada bir sıra kitablar - ”Görkəmli adamların həyatı” silsiləsindən ”Heydər Əliyev” və professor Zemfira Səfərovanın ”Üzeyir Hacıbəyli” kitabları, Cəlil Məmmədquluzadənin ”Seçilmiş əsərləri”, Rəsul Rzanın ”Rənglər” poeması, Elçinin ”Ölüm hökmü”, Çingiz Abdullayevin ”Balkan opponentləri”, Kamal Abdullanın ”Yarımçıq əlyazma” romanları, ”Qarabağ həqiqəti”, ”Erməni soyqırımı: miflər və gerçəklər”, ”223-cü Qırmızı Bayraqlı Belqrad diviziyası” və s. kimi elmi, tarixi, bədii, sənədli nəşrlər serb və Çernoqoriya dillərinə tərcümə olunaraq adı çəkilən ölkələrdə geniş yayılıb.

**Şəfiqə Şəfa**